# “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununu “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 22, maddə 947; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 419; 2001, № 3, maddə 143; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2007, № 11, maddə 1052; 2009, № 12, maddə 968) aşağıdakı dəyişikliklər edilsin:

1. 28-ci maddədə “orqanlarının və idarələrinin elə bir fəaliyyətidir ki, bu fəaliyyət” sözləri “orqanları və idarələri tərəfindən bu Qanunun və “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir və” sözləri ilə əvəz edilsin.

2. 34-cü maddə üzrə:

2.1. adında “xidməti vəzifəli şəxslərinin” sözləri “xidmətinin” sözü ilə əvəz edilsin.

2.2. 1-ci hissədə “baş dövlət sanitariya həkimi, Naxçıvan Muxtar Respublikası, şəhər və rayon, hava və su nəqliyyatı baş dövlət sanitariya həkimləri və onların müavinləri aşağıdakı hüquqlara malikdirlər” sözləri “dövlət sanitariya-epidemioloji xidməti aşağıdakı hüquqlara malikdir” sözləri ilə əvəz edilsin.

2.3. 1-ci hissənin 1-ci bəndində “xidmət vəsiqəsini göstərməklə” sözləri “xidməti vəsiqəsini, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin obyektlərinə daxil olarkən həmçinin yoxlamanın aparılması haqqında qərarın surətini və yoxlamanın sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı təqdim etməklə” sözləri ilə əvəz edilsin və 10-cu bəndindən “bilavasitə nəzarət obyektlərində zəruri laboratoriya tədqiqatları və alətlər vasitəsilə” sözləri çıxarılsın.

2.4. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

“1-1. Bu maddənin 1, 2, 4-12 və 14-cü bəndlərində nəzərdə tutulmuş hüquqları Azərbaycan Respublikasının baş dövlət sanitariya həkimi, Naxçıvan Muxtar Respublikası, şəhər və rayon, hava və su nəqliyyatı baş dövlət sanitariya həkimləri və onların müavinləri həyata keçirirlər.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 sentyabr 2014-cü il
№ 1033-IVQD